




■ Nigar Pirimova
*teatrşünas*

# Cari repertuarda uşaq tamaşaları

**Teatrla ilk tanışlıq, teatra ilk münasibət adətən uşaqlıqdan başlayır. Dostluq, sevgi, hörmət, sədaqət, mərdlik, vəfa, ləyaqət kimi müsbət hisslərin aşılandığı, kin-küdurət, nifrət, tənbəllik, paxıllıq, ikiüzlülük, yaltaqlıq kimi mənfi hisslərin tənqid edildiyi uşaq tamaşalarında əsas məqsəd balaca seyrçilərin tərbiyəsinə, düşüncəsinə müəyyən qədər təsir göstərməkdir.**



Lakin zaman ötür, dövr dəyişir, dünya inkişaf edir, texnologiyalar yenilənir, insanlar müasirləşir. Təbii ki, uşaqlar da daha müasir, daha yeni hadisələrə maraq göstərirlər. Hazırda televizorların, kompüterlerin, planşetlərin və daha nələrin maraq oyatdığı bir zamanda yaşayırıq. Bir sıra valideynlər uşaqların yeni texnoloji vasitələrə həddən ziyadə marağını təmin etməklə onlarda erkən xəstəliklərin yaranmasına yardımçı olurlar. Bu isə o deməkdir ki, zamanla ayaqlaşmaq üçün teatrlarımız da müasirləşməlidir. Və bunu o qədər mükəmməl etməlidirlər ki, müasir standartlara cavab verməklə uşaqların həqiqətən də marağına səbəb olsun. Bu gün teatrlarımızın repertuarında uşaq tamaşaları kifayət qədərdir. İstər uşaq teatrlarımız (Kukla teatrı, Bakı Uşaq teatrı) olsun, istərsə də digər teatrlarımız (Dövlət Gənc Tamaşaçılar Teatrı, Akademik Milli Dram Teatrı, Dövlət Musiqili Teatrı, Rus Dram Teatrı) repertuarlarını daima dəyişir, yeni-yeni əsərlərə müraciət edirlər.

Lakin gəlin görək qoyulan bütün tamaşalar uşaqların marağına tam səbəb olurmu? Deyərdim ki, yox! Özüm bacardığım qədər tez-tez teatrlarımızda oynanılan uşaq tamaşalarını izləməyə gedirəm. Tamaşanın əvvəlində göstərilən marağın sonacan davam etmədiyinin dəfələrlə şahidi olmuşam. Düzü Dövlət Kukla Teatrında gedən tamaşaların əksəriyyəti bəyənilən tamaşalardır. Adından da göründüyü kimi, burada əsasən, azyaşlı uşaqlar üçün tamaşalar göstərilir. Və nə xoş ki, maraqlı quruluşları ilə diqqət çəkən bu tamaşalara uşaqlar sevə-sevə baxırlar- istər musiqi cəhətdən, istən mövzu, istər kukla, yaxud rəssam işi. Əgər tamaşa boyu uşaqlar da tamaşa ilə yaşayırlarsa, deməк ki, tamaşa maraq doğura bilib.




Tez-tez baş çəkdiyim Dövlət Gənc Tamaşaçılar Teatrının repertuarında da onlarca uşaq tamaşasına rast gəlmək olar. Və o da gözəldi ki, hər mövsum repertuar yenilənir, yeni tamaşalar səhnələşdirilir. Burada son bir neçə ildə səhnələşdirilən uşaq tamaşaları mənim özümün belə marağıma səbəb olub. Ən xoş gələn cəhət isə odur ki, gənc aktyorlar uşaq tamaşalarında sevə-sevə oynayırlar, necə deyərlər, tamaşanı "yola vermirlər".

Sevindirici haldır ki, teatrlarımız məktəblilər üçün dərslik proqramına uyğun olaraq bir sıra dramaturqlarımızın əsərlərini repertuara daxil edirlər. Belə tamaşalardan Gənc Tamaşaçılar Teatrında hazırda da repertuarda olan "Müsyo Jordan və Dərviş Məstəli şah", "Hacı Qara", "Hekayəti-Xırs quldurbasan", "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (M.F.Axundzadə), "Məhv olmuş gündəliklər", "Sarıköynəklə Valehin nağılı", (İ. Əfəndiyev), "Pəri cadu", "Xorddanın cəhənnəm məktubları" (Ə.Haqverdiyev), "Xeyir və Şər" (Nizami Gəncəvi), "Qaraca qız" (S.S.Axundov, A.Şaiq), "Şeyx Sənan" (H.Cavid), "Aydın" (C.Cabbarlı), Akademik Milli Dram Teatrından "Lənkəran xanının vəziri", "Qaraca qız" və digərlərini göstərmək olar.

Düzdür, uşaq tamaşalarına kifayət qədər maraq var. Bəs nəyə görə bəzən valideynlər narazı qalırlar. Bu gün afişalara baxdıqda belə bir mənzərənin şahidi oluruq ki, repertuarda olan tamaşaların əksəriyyəti ya xarici müəlliflərin tərcümə əsərləri ("Çəkməli Pişik", "Pişiyin evi", İfritin kələyi", "İncəbel və div", "Yatmış gözəl", "Əlibaba və qırx qurldur", "Şelkinçik", "Dörd əkizin nağılı", "Buratinonun macəraları", "Balaca və damda yaşayan Karlson", "Qırmızı papaq", "Çirkin ördək balası" və s.), ya da milli ("Tıq-tıq xanım", "Göyçək Fatma", "Xeyir və Şər", "Ana qaz", "Şəhzadə Xəzərin nağılı"və s.), hamımıza uşaqlıqdan yaxşı bələd olan nağıllar əsasında hazırlanmış tamaşalardır.

Amma nədənsə, müasir dramaturqlar tərəfindən yazılmış yeni, orijinal əsərlərə çox az rast gəlinir? Və bunun əsas səbəbi gəlib çıxır dramaturgiya probleminə. Dramaturqlarımızın sayı onsuz da azdır və onlar da əsasən böyüklər üçün yazırlar. Başa düşüləndir ki, yəqin onları daha dərin mövzular düşündürür və həmin dramaturqlar müəyyən yaş həddinə mənsub insanlar üçün yazırlar. Bəs onda uşaqlar üçün kim yazacaq? Nə vaxtadək teatrlarımızın repertuarlarını yalnız tərcümə əsərləri, ya da xalq nağıllarımız təşkil edəcək? Demirəm onlar pisdir, əksinə, həddən ziyadə gözəl mövzuları olan nağıllar, əsərlərdir. Lakin nə qədər olmaya yenilənmək, müasir mövzuları səhnəyə gətirmək lazımdır. Yaxud musiqilərə gəlincə - uşaq tamaşalarındakı musiqilərin demək olar hamısı hazır musiqilərdi - ya filmlərdən, ya məşhur musiqi nömrələrindən, vaxtilə yazılmış sevimli uşaq mahnılarından istifadə olunur. Axı nə üçün bu qədər bəstəkarlarımız olduğu halda uşaq tamaşalarımız üçün məxsusi musiqi demək olar ki, yazılmır. Son dövrlərdə ancaq Gənc Tamaşaçılar Teatrının bəzi tamaşalarında yeni bəstəkar mahnılarından istifadə olunur.

Bu gün uşaq tamaşalarının cari repertuarı olduqca zəngindir. Amma eyni yerdə durmaq da olmaz, daima inkişaf etmək, yenilənmək lazımdır.

## "Toska" operası azərbaycanlı, türk və belaruslu vokalçıların ifasında




**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı xaricdən tanınmış opera və balet sənəti ulduzlarının dəvət olunması və onların bizim sənətçilərlə birgə çıxışlarının təşkili istiqamətində uğurlu qastrol fəaliyyətini davam etdirir.**

Opera və Balet Teatrının növbəti qonaqları qardaş Türkiyənin "qızıl səsli sopranosu" Deniz Yetim (Toska) və Belarusun Əməkdar artisti Vladimir Qromov (Skarpia) olacaqdır. Onlar fevralın 27-də keçiriləcək C.Puççininin "Toska" operasının tamaşasında iştirak etmək üçün Teatrın rəhbərliyi tərəfindən dəvət olunmuşlar.

Deniz Yetim İstanbul Opera və Balet Teatrının aparıcı solistidir. Bir sıra beynəlxalq müsabiqələrin qalibi olan Deniz Bakıda keçirilən Vokalçıların Bülbül adına VI beynəlxalq müsabiqəsinin Qran-Pri mükafatına layiq görülmüşdür. Dünyanın bir çox ölkələrində ən mötəbər teatr və konsert səhnələrində çıxış edən Deniz Yetimin ifası artıq bakılı sənətsevərlərə tanışdır. 2014-cü və 2015-ci illərdə onun operamızın səhnəsindəki parlaq çıxışlarını tamaşaçılar yaxşı xatırlayırlar.

"Toska" operasının tamaşasında Azərbaycan Opera və Balet Teatrının ən istedadlı solistləri - Əməkdar artistlər Fərid Əliyev (Kavaradossi), Əkrəm Poladov (Cəllad), Cahangir Qurbanov (Anjelotti) və Azərbaycanın Xalq Artisti Əli Əsgərov çıxış edəcəklər.

Dirijor Azərbaycanın Xalq Artisti, Dövlət Mükafatı laureatı, professor Rauf Abdullayevdir.